**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri tərəfindən 2025-ci il 20 fevral tarixində təsdiq edilmiş "Gənclərin audit fəaliyyətinə geniş cəlb olunmasının həlli istiqamətlərinin tətbiqinə dair sorğunun keçirilməsi barədə"**

**Plan-proqramın nəticələrinə dair**

# HESABAT

Bu hesabat, Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) təxminən 480 tələbənin iştirakı ilə həyata keçirilmiş sorğunun nəticələrinə əsaslanır və auditor peşəsinin gənclər üçün nə dərəcədə tanınan, cəlbedici və əlçatan olduğunu araşdırmağı hədəfləyir. Məqsədimiz sadəcə statistik rəqəmləri təqdim etmək deyil, həm də auditor peşəsi sahəsinin gələcək kadr bazasını formalaşdıracaq gənclərin bu peşəyə münasibətini anlamaq, onların gözləntilərinə cavab verən dəstək və maarifləndirmə modellərini müəyyənləşdirməkdir. Sorğunun nəticələri, auditor peşəsinin sabit və nüfuzlu bir karyera kimi təqdim edilməsi üçün hansı addımların atılmalı olduğunu aydın şəkildə ortaya qoyur.

Sorğu aşağıda qeyd edilən suallar üzrə aparılmışdır. Sualların həm rəqəm, həm də faiz göstəricisilə qrafik şəklində izahları qeyd edilmişdir.

**1.Hansı fakültədə təhsil alırsınız?**

Maliyyə və mühasibat-205 nəfər

Biznes və menecment-133 nəfər

Türk Dünyası İqtisad Fakültəsi-24 nəfər

İqtisadiyyat və idarəetmə-22 nəfər

Beynəlxalq İqtisadiyyat Məktəbi- 19 nəfər

Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi-19 nəfər

SABAH Mərkəz-19 nəfər

UNEC Biznes Məktəbi-10 nəfər

Rus İqtisad Məktəbi-6 nəfər

Qiyabi və Əlavə Təhsil Mərkəzi-2 nəfər

Mühəndislik-1 nəfər



**2.Auditor peşəsi haqqında məlumatınız varmı?**

Bəli-327 nəfər

Xeyr-133 nəfər



**3.Audit haqqında məlumatı haradan əldə etmişiniz?**

Universitet, ailəm-195 nəfər

İnternet və sosial şəbəkələr-102 nəfər

Kütləvi İnformasiya Vasitələrindən-57 nəfər

Qohumlar/dostlar-56 nəfər

Bilmirem-26 nəfər

İş-6 nəfər

Audit vəzifəsində çalışıram-1 nəfər

Çalışdığım fəaliyyət üzrə-1 nəfər

Hesablama Palatası-1 nəfər



**4.Auditorun işi haqqında anlayışınızı necə qiymətləndirirsiz?**

Ümumi təsəvvürüm var-176 nəfər

Səthi məlumatlarım var-143 nəfər

Heçnə bilmirəm-103 nəfər

Çox yaxşı bilirəm-39 nəfər



**5.Auditin sizin üçün karyera kimi maraqlı olub-olmadığını necə qiymətləndirirsiz?**

Ola bilsin, gələcəkdə nəzərdən keçirəcəm-258 nəfər

Bəli, çox maraqlıdır-146 nəfər

Xeyr, maraqlı deyil-56 nəfər



**6. Sizi audit sahəsində işləməyə cəlb edə biləcək amillər hansılardır?**

Tələbələrin cavabları aşağıdakı əsas amillərdə cəmlənmişdir:

1. Karyera yüksəlişi – 68 nəfər

   Bu qrupa yalnız “karyera yüksəlişi” deyil, həm də onun digər amillərlə birlikdə qeyd olunduğu cavablar daxildir (məsələn: "Karyera yüksəlişi və analitik bacarıqlar", "Yüksək əmək haqqı və karyera yüksəlişi" və s.).
2. Yüksək əmək haqqı – 61 nəfər

   Bura həm təkcə bu amili qeyd edənlər, həm də onu digər səbəblərlə birlikdə göstərənlər daxildir.
3. Beynəlxalq iş imkanları – 51 nəfər

   Respondentlər bu amili ya müstəqil şəkildə, ya da digər amillərlə birlikdə qeyd etmişlər.
4. Analitik bacarıqların inkişafı – 40 nəfər

   Bu cavablar təkcə “Analitik bacarıqlar” cavabını deyil, eyni zamanda onun kombinə edildiyi cavabları da əhatə edir.
5. Müxtəlif layihələrlə işləmək – 33 nəfər

   Fərqli layihələrdə iştirak etmək və dinamik iş mühiti bu respondentlər üçün əsas motivasiya səbəbidir.
6. Peşənin sabitliyi və nüfuzu – 28 nəfər

   Bu qrupa peşənin cəmiyyət içində qəbul olunması və stabil gələcək vəd etməsi kimi motivasiyalar daxildir.
7. Digər cavablar / qeyri-müəyyən ifadələr – 9 nəfər

   Bura "Bilmirəm", "Məlumatım yoxdur", "Düzü geniş məlumatım yoxdur" kimi qeyri-müəyyən və ya aidiyyətsiz cavablar daxildir.




Oxşar cavablar birləşdirilərək hazırlanmış ümumiləşdirilmiş qrafik. Bu qrafik göstərir ki:

- **Karyera yüksəlişi** və **yüksək əmək haqqı** ən güclü motivasiyaedici amillərdir,
- **Beynəlxalq imkanlar**, **analitik bacarıqlar**, **layihə təcrübəsi** və **peşənin nüfuzu və sabitliyi** də ciddi rol oynayır.

**7. Auditor peşəsini karyera kimi seçməyə mane olan əsas amillər:**

1. Peşə haqqında məlumatın az olması – 198 nəfər

   Bu cavabda iştirakçılar audit peşəsi barədə kifayət qədər məlumatlı olmadıqlarını, bu səbəbdən də onu karyera olaraq seçməyə tərəddüd etdiklərini qeyd etmişlər. Bu amil ən çox qeyd olunan maneədir.

2. İşin mürəkkəbliyi və yüksək stres səviyyəsi – 147 nəfər

   Respondentlər audit fəaliyyətinin mürəkkəb, məsuliyyətli və stresli olduğunu, bu səbəbdən bu sahədə işləməkdən çəkinə biləcəklərini bildirmişlər.

3. Maraqlı olmayan tapşırıqlar – 109 nəfər

   Bəzi iştirakçılar auditin gündəlik işlərinin monoton və maraqsız ola biləcəyini vurğulamış, bu səbəbdən bu peşəyə marağın azaldığını qeyd etmişlər.

4. Xüsusi sertifikat tələb olunması – 99 nəfər

Sertifikat və xüsusi imtahan tələblərinin bu sahəyə giriş üçün əlavə çətinlik yaratdığını düşünən iştirakçıların sayı da əhəmiyyətlidir.

5. Karyera perspektivlərinin qeyri-müəyyənliyi – 66 nəfər

   Respondentlərdən bəziləri bu sahədə uzunmüddətli və sabit inkişaf imkanlarının qeyri-müəyyən olduğunu bildirmişlər.




Auditor peşəsini seçməyə mane olan amillərin **ümumiləşdirilmiş faiz göstəriciləri ilə hazırlanmış qrafiki**. Ən çox qeyd olunan maneə **“Peşə haqqında məlumatın az olması”** olmuşdur – bu da tələbələrin bu sahəni tanımağa ehtiyac duyduğunu göstərir.

**8.Auditor şirkətində təcrübə keçmək istərdinizmi?**

Bəli-227 nəfər

Xeyr-29 nəfər

Ola bilsin-151 nəfər



**9.Audit sahəsinə marağınızı artıracaq dəstək formaları hansılardır?**

1. Tədris seminarları və təlimlər – 215 nəfər

Bura təkcə bu formanın qeyd olunduğu cavablar deyil, həm də digər dəstək formaları ilə birlikdə qeyd edildiyi hallar daxildir.

2. Peşəkar auditorların ustad dərsləri – 188 nəfər

Bu formaya xüsusi maraq göstərən respondentlər auditorlardan real təcrübə və bilik almaq istədiklərini vurğulamışlar.

3. Mentorluq proqramları – 153 nəfər

Gənc auditor namizədlər sahədə təcrübəsi olan şəxslərlə bilavasitə əlaqənin faydalı olacağını bildirmişlər.

4. Karyera sərgiləri və işəgötürənlərlə görüşlər – 84 nəfər

İştirakçılar real iş dünyası ilə əlaqə yaratmağın və sahə mütəxəssisləri ilə görüşlərin motivasiyaedici təsirini qeyd etmişlər.

5.Sertifikasiya üçün hazırlıq kursları – 54 nəfər

Bəzi iştirakçılar sertifikatlaşdırma mərhələlərinə hazırlaşmaq üçün əlavə dəstəyə ehtiyac duyduqlarını bildirmişlər.



**10.Gənclərin auditor peşəsinə marağını artırmaq üçün nə təklif edərdiniz?**

**11.Gənclər arasında audit sahəsinin cəlbedici tərəfləri haqqında məlumatlandırma kampaniyası necə həyata keçirilməlidir?**

*10 və 11-ci suallar mahiyyətcə eyni mövzunu – gənclər arasında auditor peşəsinin tanıdılması və bu sahəyə marağın artırılması yollarını əhatə etdiyindən, respondentlərin cavabları hər iki sualda üst-üstə düşmüşdür.*

1. Auditor peşəsi üzrə sertifikatların alınmasına dəstək verilməsi – 7 nəfər Respondentlər qeyd ediblər ki, auditor peşəsi üzrə beynəlxalq və yerli sertifikatların alınması üçün həm maddi, həm də metodoloji dəstəyin göstərilməsi gənclərin bu sahəyə yönəlməsində mühüm rol oynaya bilər. Sertifikatlar həm də peşəyə inam və motivasiyanı artırır.

2. Təcrübə və ixtisasartırma proqramlarının artırılması – 6 nəfər Respondentlərin əhəmiyyətli bir hissəsi auditor şirkətlərində real iş təcrübəsinin qazanılması üçün daha geniş və əlçatan təcrübə imkanlarının yaradılmasını vacib sayır. Praktiki təcrübə gənclərə peşəni daha yaxından tanımaq imkanı verir.

3. Peşənin üstünlüklərini əks etdirən sosial media kampaniyalarının aparılması – 3 nəfər Auditor peşəsinin əhəmiyyəti, karyera perspektivləri və real imkanlarının daha geniş ictimaiyyətə çatdırılması üçün sosial şəbəkələrdə maarifləndirici və cəlbedici kampaniyaların keçirilməsi təklif olunmuşdur.



**12.Gənclərə auditin dinamik və gəlirli bir peşə olduğunu çatdırmaq üçün hansı üsullar daha təsirli ola bilər?**

Uğurlu auditorların real həyat hekayələrini paylaşmaq-4 nəfər

**13.Gəncləri audit sahəsinə necə maraqlandırmaq və cəlb etmək olar?**

1. Məktəblərdə, kolleclərdə və universitetlərdə ustad dərsləri və mühazirələr – 4 nəfər Bu cavab həm tək şəkildə, həm də digər təkliflərlə birlikdə qeyd olunub. Respondentlər hesab edir ki, erkən yaşlardan audit peşəsi haqqında məlumatlandırma tədbirləri gənclərin marağını artırar.

2.Açıq qapı günlərinin təşkili – 2 nəfər

Respondentlər açıq qapı günlərinin keçirilməsini, gənclərin audit şirkətləri və müvafiq qurumlarla tanışlığını əhəmiyyətli hesab etmişlər.

3.Sosial şəbəkələrdə maraqlı məzmun paylaşımı – 1 nəfər

Bu təklifə əsasən, gənclərin sosial şəbəkələrdə vizual və informativ materiallarla maarifləndirilməsi vacibdir.

4.Peşə profili üzrə olimpiadaların keçirilməsi – 1 nəfər

Bəzi respondentlər rəqabətə əsaslanan tədbirlərin – məsələn, audit üzrə olimpiadaların – gənclərdə bu sahəyə qarşı motivasiyanı artıra biləcəyini qeyd etmişlər.



**14.Karyera inkişafı, beynəlxalq sertifikatlar və perspektivlər barədə nə cür məlumatlandırma kampaniyası təşkil etmək olar?**

Cavablandırılmayıb.

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) keçirilmiş sorğunun nəticələri əsasında "Gənclərin Audit Peşəsinə Cəlb Olunmasına dair"**

**Nəticə və Təkliflər**

Sorğunun nəticələri göstərir ki, gənclərin audit peşəsinə marağı məhduddur, lakin düzgün istiqamətləndirildikdə bu maraq artırıla bilər. Aşağıdakı təkliflər bu sahəyə marağın artırılmasına töhfə verə bilər:

**1. Maarifləndirici tədbirlərin təşkili**

Audit peşəsi haqqında maarifləndirici seminarlar, ustad dərsləri və auditorlarla görüşlərin təşkili vacibdir. Bu tədbirlər universitet daxilində mütəmadi xarakter daşımalıdır.

**2. Sosial media üzərindən maarifləndirmə**

Gənclərin çoxu sosial şəbəkələrdə aktiv olduğu üçün, audit peşəsini təbliğ edən qısa videolar, posterlər, auditorlarla "canlı yayım" formatlı müsahibələr fərqli auditoriyaya çatmaq üçün effektiv ola bilər.

**3. Təcrübi proqramlar və ixtisasartırma imkanları**

Audit sahəsini praktik yollarla tanımaq üçün tələbələr üçün yay təcrübə proqramlarının təşkili, audit şirkətlərində müvafiq vakant yerlərin ayrılması təklif edilir. Bu zaman tələbələrə mentor auditorlar təyin olunmalıdır.

**4. Audit fənnlərinin təhsil proqramlarına daxil edilməsi**

Mühasibatlıq, maliyyə və iqtisadiyyat sahəsində təhsil alan tələbələrin audit peşəsi ilə daha yaxından tanış ola bilməsi üçün bu sahəyə dair fənnlər təhsil proqramlarına daha geniş şəkildə daxil edilməlidir. Həmin fənlər praktiki yönümlü olmalı, real audit halları üzərində qurulmuş tədris materialları (case study-lər) ilə zənginləşdirilməlidir. Bu yanaşma tələbələrin nəzəri biliklərlə yanaşı, praktik düşünmə və analiz bacarıqlarını da inkişaf etdirəcəkdir.

**5. Peşəkar sertifikatlara çıxış imkanlarının artırılması**

Tələbələrin beynəlxalq (ACCA, CIA və s.) və yerli auditor sertifikatları haqqında məlumatlılığını artırmaq məqsədilə universitetlərdə təqdimatlar və məlumat sessiyaları təşkil edilməlidir. Eyni zamanda, bu imtahanlara hazırlıq üçün tələbələrə güzəştli şərtlərlə kurslar və təqaüd proqramları təqdim olunmalıdır. Bu, onların peşəkar inkişafına və sertifikatlara daha asan çıxış əldə etməsinə şərait yaradacaqdır.

Bu təkliflərin reallaşdırılması audit peşəsinin daha geniş auditoriyaya tanıdılması və gənclərin bu sahəyə cəlb olunması baxımından əhəmiyyətli olacaq.